# 8 mart—qadınlar bayramıdır

8 Mart—Beynəlxalq Qadınlar Bayramı iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günüdür. 1910-cu ildə sosialist qadınlarının Kopenhagendə keçirilən 2-ci Beynəlxalq Konfransında Klara Setkinin (1857—1933) təklifi ilə beynəlxalq qadınlar gününün bayram edilməsi qərara alınmışdır. 1911-ci ildən başlayaraq dünyanın bir sıra ölkələrində qeyd edilməyə başlamışdır. Azərbaycanda isə qadınlar günü 1917-ci ildən bəri qeyd edilir. Beynəlxalq qadınlar gününün 8 martda keçirilməsi Avstriya, Almaniya, Rusiya, ABŞ və s. ölkə qadınlarının həmrəyliyi ilə məhz bu tarixdə qeyd edilməsi ənənə halını almışdır.

Bütün ölkələrdə qadınlar bayramı müqəddəs bir varlığın—anaların bayramı kimi qeyd olunur. Elə bayramın özünəməxsus gözəlliyi bundan ibarətdir. Anaların bü dünyada nə qədər sevimli, əziz və əvəzolunmaz olduğunu hamımız çox yaxşı bilirik. Dilindən, dinindən asılı olmayaraq bu inkar edilməz bir faktdır ki, bəşər övladı anaya dərin hörmət bəsləyir. Necə deyərlər, «cənnət anaların ayaqları altındadır». 8 mart—qadınlar günü bütün ölkələrdə sülh uğrunda mübarizə və qadınların öz hüquqlarının müdafiəsinə qalxdığı gün kimi qeyd edilir. Gəlin, analar bizi sevib əzizlədiyi kimi biz də tarixə şanlı səhifə kimi yazılmış 8 mart günü məhəbbətimizin dərinliklərində bir pay ayıraq analarımıza.

1991-ci ildə xalqımız müstəqillik qazandıqdan sonra bu bayram ölkəmizdə geniş miqyasda keçirilir.

**Nigar ELDAROVA,**
**Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşı.**

# Futbol yarışı

Qəbələ Rayon Təhsil Şöbəsinin tədbirlər planına uyğun olaraq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə rayonda müxtəlif idman tədbirləri keçirilir. Onlardan biri də bu günlərdə Bılıx kənd tam orta məktəbinin futbol meydançasında Kiçik Əmili və Bılıx kənd tam orta məktəb komandaları arasında futbol üzrə keçirilən yoldaşlıq görüşü idi.

Yarışdan qabaq Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükula yad edilmişdir. Sonra komandalar arasında gərgin idman mübarizəsi başlanmışdır. Oyunda ilk iki topu qapıya Kiçik Əmili kənd məktəbinin şagirdi İntiqam Ağayev vurmuşdur. Sonra Bılıx kənd tam orta məktəbinin nümayəndəsi Şahin Babayev dalbadal iki cavab topu vuraraq ümumi hesabı bərabərləşdirmişdir. Beləliklə, maraqlı keçən bu oyun 2:2 hesabı ilə heç-heçə nəticələnmişdir.

**Nəriman SƏMƏDOV,**
**Kiçik Əmili kənd tam orta məktəbin bədən tərbiyəsi rəhbəri, yarışın baş hakimi.**

# Cavab görüşləri martın 7-də keçiriləcək

Futbol üzr ölkə kubokunda 1\4 final mərhələsinin ilk oyunları keçirilmişdir.

Günün ilk matçında «Qəbələ» «Qarabağ»ı qəbul etmişdir. Görüş 1:1 hesabı ilə başa çatmışdır.

Digər oyunlarda isə aşağıdakı nəticələr qeydə alınmışdır: «Bakı»—«İnter»—1:1, «Simurq»—«Neftçi»—0:0, «Rəvan»—«Xəzər Lənkəran»—1:2.

Komandalar arasında cavab qarşılaşmaları ayın 7-də keçiriləcək.

# 1 mart—Ümumdünya Beynəlxalq Mülki Müdafiə Gününə həsr olunmuş nəzəri-praktiki maarifləndirmə tədbiri

FHN Şimal-qərb Regional Mərkəzi tərəfindən 27 fevral 2013-cü il tarixində Qəbələ şəhər 4 saylı tam orta məktəbində 1 mart—Ümumdünya Mülki Müdafiə Gününə həsr olunmuş nəzəri-praktiki tədbir keçirilmişdir. Tədbirdə Mərkəzin zabitləri, mülki işçiləri və xilasediciləri, Təhsil şöbəsinin nümayəndələri, məktəbin müəllim və şagird kollektivi iştirak etmişdir.



Şagirdlərin yarana biləcək fövqəladə hallara hazır olması, fövqəladə hallar zamanı davranış qaydaları, özünə və digərlərinə ilkin tibbi yardımın göstərilməsi və mülki müdafiə sahəsində mükəmməl vərdiş və biliklərə yiyələnməsinə nail olmaq məqsədi daşıyan tədbirin nəzəri hissəsini məktəbin direktoru Qəşəngi Musayeva açaraq iştirakçıları salamlamış və belə tədbirin keçirilməsini yüksək qiymətləndirmişdir. Təhsil şöbəsinin əməkdaşı İbrahim Faxlulov qeyd etmişdir ki, müəllimlərin mülki müdafiə işinin təşkilini, onun məqsədini, əhəmiyyətini və fövqəladə hallar zamanı davranış qaydalarını bilmələri və bu bilikləri daim məktəbin şagirdlərinə və digər işçilərinə çatdırmaları olduqca vacibdir.



Sonra Şimal-qərb Regional Mərkəzinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi Eldəniz Mehdiyev Beynəlxalq Mülki Müdafiə Təşkilatı və 1 mart—Ümumdünya Mülki Müdafiə gününün yaranma tarixi və məqsədləri haqqında, Mərkəzin əməkdaşları Natiq Rüstəmov, Aqşin İbrahimli, Tural Əhmədov fövqəladə hal anlayışı, mülki müdafiə, texnogen qəzalar, fərdi mühafizə vasitələri, yanğın, yanğın təhlükəsizliyi, partlayış, zəhərlənmə təhlükəsindən necə mühafizə olunmalı, dəm qazından zəhərlənmənin profilaktikası, "112" zəng xidmətindən hansı hallarda istifadə etmək olar və sair mövzularında çıxışlar etmişlər.

Tədbirin praktiki hissəsində yanğın zamanı müəllim və şagirdlərin Mərkəzin Xüsusi Xilasetmə hissəsinin xilasediciləri tərəfindən təxliyə olunması, binanın yuxarı mərtəbələrində çıxılmaz vəziyyətdə qalanların pəncərələrdən xüsusi avadanlıqlar vasitəsilə xilas edilməsi, yaralılara ilkin tibbi yardımın edilməsi əyani şəkildə göstərilmişdir. Sonra məktəbin hərbi rəhbəri tərəfindən 10—11-ci sinif şagirdlərinə həyəcan siqnalı verilmişdir. Şagirdlər fərdi muhafizə vasitələrindən istifadə edərək digər köməyə ehtiyacı olan şagird yoldaşlarını xilas etmişlər. Tədbirin sonunda müəllim və şagirdləri maraqlandıran suallar cavablandırılmışdır.

**FHN Şimal-qərb Regional Mərkəzinin İctimaiyyətlə əlaqə və təbliğat sektoru.**

## ALLAH RƏHMƏT ELƏSİN

FHN Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları

**NƏCƏFOV MÜBARİZ ABDULLA OĞLUNUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon İncəsənət məktəbinin kollektivi iş yoldaşları **Vəfa Rəsulovaya,** dayısı

**NADİR KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi
M. Ə. Rəhimov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Nizami küçəsi, 3.
Redaktor: (024)20 5-19-14.
Ümumi: 5 - 15 - 56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
"Kapitalbank"ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet "Qəbələ" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "E-Q" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.